# Ədalət bərqərar olacaq

## Biz uzun müddət düşmən tapdağı altında qalmış müqəddəs yurd yerlərimizə qayıdacağıq

**Son günlər qoşunların təmas xəttində erməni işğalçılarının təxribata əl atacağı gözlənilən idi. Ermənistanı belə bir təxribata sövq edən bir neçə səbəblər var.**

Bir tərəfdən, Ermənistanda çoxdan davam edən iqtisadi tənəzzül artıq elə bir həddə çatıb ki, başqa ölkələrə köçə bilməyib məcburən Ermənistanda yaşayan əhali hökumətə qarşı siyasi tələblər irəli sürür, Ermənistanda hakimiyyəti zəbt etmiş quldur dəstəsindən yaxa qurtarmaq üçün aramsız etiraz aksiyaları keçirirlər. Öz hakimiyyətini uzatmaq üçün Sarkisyan hökumətinin keçirdiyi referendumun saxtalaşdırılmasından sonra əhalinin hakimiyyətə qarşı təzyiqi getdikcə artmaqdadır. Bu təzyiqi azaltmaq üçün Sarkisyan rejiminə ictimaiyyətin diqqətini daxili siyasi durumdan yayındırmaq lazım gəlir. Buna görə də Qarabağda vəziyyətin gərginləşdirilməsi müxalifəti cilovlamaq üçün Ermənistan hakimiyyətinə bəhanə kimi çox lazımdır.

Digər tərəfdən, ermənilərin və onların müttəfiqlərinin bütün ciddi-cəhdlərinə baxmayaraq, son aylarda Avropa Birliyinin yüksək çinli nümayəndələrinin Azərbaycana səfərləri intensivləşmiş, Avropa və ABŞ tərəfindən Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasını birmənalı şəkildə dəstəkləyən bəyanatlar səsləndirilmişdir. Layihənin əleyhdarları regionda qeyri-sabitlik görüntüsü yaratmaq üçün həmişə olduğu kimi bu dəfə də ermənilərin pozuculuq xidmətindən yararlanmaqda maraqlıdırlar.

Nəhayət, Azərbaycan Prezidentinin bu günlərdə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi sammitində iştirakı, sammit çərçivəsində keçirilmiş yüksək səviyyəli görüşlər Azərbaycana qarşı xoş məramlı münasibəti, qlobal və regional məsələlərdə Azərbaycanın rolunun etiraf olunmasnı və dəstəkləndiyini nümayiş etdirir. ABŞ-ın vitse-prezidenti Co Baydenin öz ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləməsini ifadə etməsi isə Azərbaycanın haqlı mövqeyinin ABŞ tərəfindən birmənalı şəkildə dəstəklənməsi deməkdir. Bu da öz növbəsində Azərbaycanın müstəqil siyasət aparmaq kursunu qəbul etməyən qüvvələri qıcıqlandırmaya bilməzdi.

Bütün bunların toplamı Ermənistanı və onun havadarlarını Azərbaycana qarşı təzyiqləri artırmağa sövq edir və ermənilər də həmişə olduğu kimi öz mənfur təxribatçılıq rolunu oynamaqda davam edirlər.

Lakin Milli Ordumuzun döyüş ruhunu düzgün dəyərləndirə bilməyən ermənilər bu dəfə layiqli cavabını aldı və artıq belə təxribatların uğur gətirməyəcəyinə bir daha əmin oldu. Son hadisələr statuskvonun qorunub saxlanması üçün münaqişənin həll olunmasını ləngidən tərəflər üçün də vacib bir mesaj oldu. Bu mesaj ondan ibarətdir ki, Azərbaycan öz torpaqlarının itirilməsi ilə heç vaxt barışmayacaq və nəyin bahasına olursa olsun, biz öz torpaqlarımızı azad edəcəyik.

Dünya ölkələrinin əksəriyyətində media orqanları baş verən hadisələri işıqlandıraraq münaqişənin tarixi haqqında məlumat verirlər. Verilən şərhlərdən də



görünür ki, zaman keçdikcə, dünyanın münaqişə haqqında bilgiləri obyektivlik istiqamətində dəyişməkdədir. Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə tanıdılması üçün dünyanın müxtəlif bölgələrində Azərbaycan dövləti tərəfindən, eləcə də Heydər Əliyev Fondu, diplomatik korpusumuz, diaspor təşkilatlarımız və ayrı-ayrı vətəndaşlarımız tərəfindən həyata keçirilən çoxsaylı tədbirlərin artıq bəhrə verdiyini görürük. Zaman keçdikcə Azərbaycanın haqlı mövqeyi beynəlxalq ictimai rəydə daha geniş şəkildə yayılmaqda və daha geniş miqyasda qəbul olunmaqdadır. Bütün bunlar son 2 onillik ərzində Azərbaycan dövlətinin apardığı müstəqil, qətiyyətli və ardıcıl xarici siyasi kursun xalqımız və dövlətimiz üçün uğurlu olduğunu və Qarabağ həqiqətlərinin obyektiv şəkildə dünyaya çatdırılması üçün seçilmiş fəaliyyət istiqamətinin doğru olduğunu göstərir. Bəzi beynəlxalq mətbu orqanlarında ölkəmizin bu münaqişəyə xarici güclər tərəfindən cəlb olunmasının və Azərbaycanın münaqişəni danışıqlar yolu ilə həllinə sadiqliyinin vurğulanması üzün illər ərzində düşmənlərimiz tərəfindən Azərbaycana qarşı aparılmış qərəzli informasiya müharibəsinin də iflasa uğradığını göstərir.

Baş verən hadisələrə beynəlxalq qurumların reaksiyalarını isə hələ də adekvat hesab etmək olmaz. Müxtəlif ölkələrdən ayrı-ayrı siyasətçilər Azərbaycanın mövqeyini açıq şəkildə dəstəkləsələr də BMT, AB, ATƏT, AŞPA kimi vacib qurumların rəhbərləri öz açıqlamalarında həmişə olduğu kimi, tərəfləri qarşıdurmadan çəkinməyə çağırmaqla kifayətlənirlər. BMT Baş katibi Pan Gi Mun öz bəyanatında tərəfləri 1994-cü il Atəşkəs Sazişinə əməl etməyə çağırır, lakin ondan da əvvəl özünün rəhbərlik etdiyi qurum tərəfindən qəbul olunmuş 4 Qətnaməyə hələ də əməl olunmadığını unudur. ATƏT-in Minsk qrupunun həmsədrlərinin narahatlıq ifadə edən çağırışı və Vyanada növbəti görüş keçirmək haqqında bəyanatı da həmişə olduğu kimi işğalçı ilə işğala məruz qalan tərəfləri eyniləşdirmək cəhdlərindən başqa bir şey deyil.

Belə çıxır ki, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən və təcavüzkarı buxovlayacaq yeganə güc mərkəzi məhz Azərbaycan Ordusu və Azərbaycan Prezidentinin erməni işğalına qarşı güzəştsiz mövqeyidir. Azərbaycan xalqının yeganə ümid yeri ölkə başçısının bütün işğal olunmuş ərazilərimizin azad olunması üçün dəfələrlə bəyan etdiyi siyasi iradəsi və qətiyyətidir. Bu gün Azərbaycan əsgəri işğalçı ordunu öz səngərlərini qoyub qaçmağa məcbur edirsə, bir gün Azərbaycan hakimiyyəti də işğalçını dəstəkləyən qüvvələri öz ədalətsiz inadlarından geri çəkilməyə məcbur edəcəkdir. Bu yolda bütün Azərbaycan xalqı Azərbaycan Prezidenti ətrafında monolit ümumxalq birliyi nümayiş etdirir. Hər bir Azərbaycan vətəndaşı işğal olunmuş torpaqlarımızın azad olunması və düşmən təcavüzündən müdafiə olunması üçün müqəddəs savaşa canı və qanı ilə hazırdır. Bu günlərdə Vətən torpaqlarının azad olunması üçün canından keçmiş igid əsgərlərimiz bu günün və gələcəyin əbədi qəhrəmanlarıdır. Onlar torpağımızın hər qarışı üçün canlarından keçməyə hər an hazır olduqlarını öz şücaətləri ilə göstərdilər və ölməzliyə qovuşdular.

Qarabağ avantürası üzərində Ermənistanda siyasi hakimiyyətə yiyələnmiş cinayətkar dəstə isə əmin olmalıdır ki, onlar nəinki öz hakimiyyətini, heç Ermənistan adlanan qondarma dövləti də qoruyub saxlaya bilməyəcəklər. Azərbaycan torpaqlarında süni surətdə yaradılmış, xarici qüvvələrin əlində oyuncaq rolunu oynayan və başqa dövlətlər üçün forpost funksiyası daşıyan qondarma bir qurum bir gün dünyanın siyasi xəritəsindən silinib gedəcək. Tarixi ədalət bərqərar olacaq, biz uzun müddət düşmən tapdağı altında qalmış müqəddəs yurd yerlərimizə qayıdacağıq. Bu yolda şəhid olmuş qəhrəman əsgərlərimizin ruhuna hörmət və ehtiram hissi ilə,

**Cavanşir Feyziyev**
**Millət vəkili, fəlsəfə doktoru**

